# QARABAĞIN QIRMIZI SİYAHILARI, İNTRODUKSİYA VƏ REİNTRODUKSİYA MƏSƏLƏRİ

**Vaqif Novruzov**

*Gəncə Dövlət Universiteti*

Qarabağın mürəkkəb geomorfoloji relyefi, füsunkar təbiəti bir çox nadir relikt və endem növlərin qorunub saxlanması üçün əlverişlidir. Bununla belə, Qarabağın bir çox bitki və heyvan növləri erməni vandalizmi nəticəsində nadirləşərək məhv olmuş və ya məhv olma təhlükəsi ilə üzləşmişdir. Ölkəmizdə bitkilər aləminin qorunması həm ölkə qanunvericiliyində, həm də 1989-cu ildə nəşr olunmuş Azərbaycan SSRİ-nin bitki və heyvanlarının "Qırmızı kitab"ının birinci nəşrində və 2013-cü ildə nəşr olunmuş ikinci nəşrində təsbit edilmişdir. Birinci nəşrə 140, ikinci nəşrə 300 bitki növü daxil edilmişdir. Birinci nəşrdəki 140 növdən 30-nun – Fişer şterinbergiyası (*Sternbergia fischeriana* (Herb)M. Roem), Hirkan şümşadı (*İlex hyrcana* Pojark*)*, Kamilla süsəni (*İris camillae* Grossh.*)*, azşüalı zərəfşan (*Zeravschania pauciradiata* (Tamasch) M.Pimer), Qafqaz xədicəgülü (*Galanthus caucasicus* (Baker.) Grossh*)*, İtikənarlı süsən (*İris acutiloba* C.A.Meyer*)*, Uzunyappaqlı səhləb (*Cephalanthera longifolia* (L.) Fritsch*)*, Şərq çinarı (*Platanus orientalis* L.), Qaya dovşanalması (*Coteneastr saxatilis* Poyark), Üçfullu nektaroskordum (*Nectaroscordum tripedale* (Trautv) Grossh), Vələsyarpaq azat (*Zelkova carpinifolia* (Pall.) K. Koch.), Alp vudsiyası (*Woodsia alpina* (Bolt) S.F. Gray) və s. – arealının əsas hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilər olmuşdur. 10 növün – Gözəl təkəsaqqal (*Scorzonera* pulchra Lomak.), Qarabağ tülpanı (*Tulipa karabachensis* Grossh.*)*, Araz palıdı *(Quercus araxina* (Trautv) Grossh.), Şmidt dağ laləsi (*Tulipa schmidtii* Fomin.), Şoranyer qarğasoğanı (*Gladiolus holophilus* Boiss.), Kuznetsov əsməsi (*Anemone kusnetzowii ex* Grossh.*)*, Sağsağan gülxətmisi (*Alcea sachsachanica* İljin), Zəngilan gəvəni *(Astragalus zangelanus* Grossh.*)*, Qarabağ güləvəri (*Centaurea karabajhensis* (Sosn.) Sosn.) təbiətdə arealı yalnız Qarabağdır. "Qırmızı kitab"ın ikinci nəşrinə isə bəzi istisnalarla birinci nəşrdə olan bütün növlər daxil edilmişdir. Bu növlərin xilas edilməsi üçün tədbirlərin görülməsi barədə dəfələrlə beynəlxalq konfrans və simpoziumlarda, o cümlədən 2005-ci ildə Avstriyanın paytaxtı Vyana şəhərində keçirilən Botaniklərin XVII beynəlxalq konqresində dünya botanikləri qarşısında məsələ qaldırılmasına baxmayaraq, heç bir nəticəsi olmamışdır. Nadir və məhvolma təhlükəsinə məruz qalan bu növlərin mühafizəsi yalnız "Qırmızı kitab"a daxil edilməklə başa çatmışdır. Bu gün Azərbaycanın "Qırmızı kitab"ının hər iki nəşrinə daxil edilmiş nadir və məhvolma təhlükəsində olan bitki növlərinin taleyi necədir? Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təbiri ilə desək, 44 günlük Vətən müharibəsindəki qələbəmiz bu sualın cavabını artıq vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkərək, Qarabağda introduksiya və reintroduksiyanın əsasını qoydular. Payız ağacəkmə kampaniyası çərçivəsində işğaldan azad olunmuş Füzuli, Ağdam və Qubadlı rayonlarının ərazilərində də ağacəkmə tədbirləri keçirilərək yerli şəraitə uyğun müxtəlif cinsli ağaclar əkilmiş və meşəcinsli ağac toxumları səpilmişdir. AMEA Rəyasət Heyətinin 16 oktyabr 2019-cu il tarixli 14/11 nömrəli qərarı ilə Azərbaycan Respublikasının "Qırmızı kitab"ının III nəşrinin hazırlanması qərara alınmışdır. Şübhəsiz ki, nadir və nəsli kəsilməkdə olan növlərin tədqiqi üzrə mütəxəssislər tərəfindən Qarabağda intensiv monitorinqlər keçiriləcək, beynəlxalq səviyyədə qorunma meyarları müəyyənləşdirilərək, "Qırmızı kitab"ın III nəşri faktik materiallar əsasında tərtib olunacaqdır.